# İŞĞALDAN AZAD EDİLMİŞ KƏLBƏCƏR RAYONUNUN KƏND TƏSƏRRÜFATININ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Poladova A.B.**

*Bakı Dövlət Universiteti*
*aydanpoladova57@gmail.com*

Cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusu 44 gün davam edən Vətən Müharibəsində təcavüzkar Ermənistan dövləti üzərində qəhrəmancasına zəfər qazanmış və 25 noyabr 2020-ci il tarixində noyabr ayının 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən Qarabağın işğal dövrünə son qoymuş, ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Kəlbəcər-Laçın iqtisadi rayonunun tərkibinə daxil olan Kəlbəcər Respublikamızın ən yüksək dağ rayonudur. Həmçinin, inzibati mərkəzi Kəlbəcər şəhəri olan Kəlbəcər rayonu Azərbaycan Respublikasının inzibati ərazi vahididir.

Tərtər çayı vadisində, Kiçik Qafqazda yerləşən Kəlbəcər rayonu öz zəngin flora və faunası ilə fərqlənir. Bitki örtüyünə enliyarpaqlı meşələr, meşə-çöl bitkiləri, alp və subalp çəmənlikləri, heyvanlar aləminə dağ keçisi, cüyür, ular, qartal kimi heyvan növləri daxil olan Kəlbəcər rayonunda aqrar sahədə çoxşaxəli inkişaf perspektivləri mövcuddur. Vaxtilə heyvandarlıq və əkinçilik sahəsində inkişaf edən, ət məhsulları istehsalında öndə olan Kəlbəcərin kənd təsərrüfatı sahələri işğaldan sonrakı dövrdə xeyli dərəcədə zədə almışdır. Artıq işğalçılardan azad edilmiş ərazilərimizdə, eləcə də Kəlbəcərdə Azərbaycan dövləti tərəfindən kompleks tədbirlər planı həyata keçirilməyə başlayıb. Kəlbəcər rayonunda yay otlaqları kimi istifadə olunan dağ çəmənlikləri geniş sahə tutduğundan, eləcə də, relyef baxımından Kəlbəcər rayonu heyvandarlıq sahəsinin inkişafı üçün çox əlverişlidir. Rayonda çimli dağ-çəmən və qonur dağ-meşə torpaqları yayılıb. Rayon ərazisində torpaq örtüyünün əmələ gəlməsinə relyef və iqlim təsir göstərir. Ərazidə iqlim şəraiti, relyef və torpaq örtüyü nəzərə alınmaqla dəmyə əkinçiliyi, maldarlıq, meşə təsərrüfatı, arıçılıq, üzümçülük, bağçılıq, tərəvəzçilik kimi sahələri inkişaf etdirmək olar. Kəlbəcərin gözəl təbiəti, əlverişli relyef şəraiti nəinki kənd təsərrüfatı üçün, həm də, Kəlbəcərdə turizm sahəsinin və iqtisadiyyatın inkişafı üçün də böyük əhəmiyyət daşıyır.

Qeyd etmək lazımdır ki, qoyunçuluq və arıçılıq kimi təsərrüfat sahələrinin işğaldan azad edilmiş Kəlbəcər rayonunun yaylaqlarına köçürülməsi prosesinə pilot layihə çərçivəsində başlanılıb. Layihə çərçivəsində bu il ərzində ümumi sayı 10 min başı keçməməklə 6 qoyunçuluq təsərrüfatının Kəlbəcər rayonunun yaylaqlarına köçürülməsi planlaşdırılırdı və artıq bu planlaşdırılma öz müsbət nəticələrini verməkdədir. Pilot layihə həyata keçirilməzdən əvvəl qeyd edilən təsərrüfatların Kəlbəcər yaylaqlarına köçürülməsi riskləri qiymətləndirilib, sürülərin və arı pətəklərinin, eyni





zamanda onlara qulluq edəcək vətəndaşların təhlükəsizliyinin təmin edilməsi üçün əraziyə müvafiq qaydada baxış keçirilib. Risklər müəyyən olduqdan sonra dislokasiya xəritələri hazırlanıb və bəhs olunan təsərrüfat sahələrinin yerləşəcəyi ərazilərin dislokasiya koordinatları fermerlərə təqdim edilib. Həmin fermerlərə ANAMA-nın Göygöl Regional Təlim Mərkəzində dislokasiya davranış qaydalarına əsasən təlim də keçirilib. Təsərrüfatların yaylaqlara köçürülmə prosesi yerli bölmələrin iştirakı ilə Daxili İşlər Nazirliyi nəzarətində həyata keçirilib. Pilot layihə çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin Torpaqlardan istifadəyə nəzarət və Heyvandarlığın təşkili və monitorinqi şöbələri yaylaq mövsümü dövründə Kəlbəcər ərazisinə köçürülmüş qoyunçuluq və arıçılıq təsərrüfatlarının fəaliyyəti, vətəndaşların dislokasiya ərazilərində tətbiq olunan qaydalara riayət etməsi, risklərin dəyərləndirilməsi ilə bağlı mütəmadi monitorinq keçirilməkdədir. Ümumilikdə pilot layihənin əsas məqsədi riskləri müəyyənləşdirmək, Kəlbəcər rayonu ərazisində olan yaylaqlardan istifadə imkanlarını müəyyənləşdirmək və növbəti illərdə daha çox təsərrüfat sahələrinin Kəlbəcərə köçürülməsini təmin etməkdir. Kəlbəcərdə olan yaylaqlar sovetlər dövründə heyvan sürüləri üçün köç yeri kimi istifadə olunub. Azərbaycanın bir sıra rayonları işğaldan öncəki dövrdə bu yaylaqların imkanlarından heyvandarlıq təsərrüfatı mövsümündə yararlanıb. Kəlbəcərin Söyüdlü, Sarıyer, Qoşadağ və bu kimi başqa yaylaqlarında zəngin ehtiyat bitki örtüyü mövcuddur. Hal-hazırda bu ehtiyatların qoyunçuluq və arıçılıq kimi təsərrüfat sahələrinin inkişafı üçün dəyərləndirilməsi prosesi davam etməkdədir. Tanınmış arıçı Sabir Mustafayev, arıçı Vahid Məmmədov da bu il pilot layihə çərçivəsində arılarını Kəlbəcər yaylaqlarına ilk aparan arıçılardandır. Onlar yaylaqların zəngin bitki örtüyünün məhsuldarlığa müsbət təsir göstərdiyini deyib və bu il çox yüksək məhsuldarlıq əldə olunduğunduğunu bildiriblər. Bundan başqa Nazirlik rəsmiləri tərəfindən alınan məlumatlara görə həm qoyunçuluq, həm də arıçılıq kimi təsərrüfat sahələrinin Kəlbəcər rayonuna köçürülməsi işğalçılardan azad edilmiş ərazilərimizə "Böyük Qayıdış"ın ilkin mərhələlərindən biri hesab olunur.

İşğaldan sonrakı dövrdə Azərbaycanda əkinçilik və heyvandarlıq, xüsusən də, yarımköçəri heyvandarlıq təsərrüfatlarına ciddi zərər dəydiyi açıq-aşkar görülməkdədir. Ancaq istisna deyildir ki, Kəlbəcərdə kənd təsərrüfatının bərpası ilə bağlı müxtəlif istiqamətlərdə icra olunacaq fəaliyyət planları, rayonun iqlimi və təbiəti burada kənd təsərrüfatının inkişafına imkan yaradacaq. Kənd təsərrüfatı üzrə mütəxəssislərin apardıqları araşdırma və hesablamalara görə, Kəlbəcərdə aqrar sahədə istehsal olunan məhsulun yenidən bərpa və artım dövrü 2025-ci ildə yüksək dərəcəyə çatacaqdır. Kənd təsərrüfatının potensialının artırılması istiqamətində müxtəlif yanaşmalar və konsepsiyalar mövcuddur ki, bura həmçinin aqroturizm də daxildir. İşğaldan azad olunan Kəlbəcər rayonu kənd təsərrüfatı və turizm sektorlarının kəsişməsindən meydana gələn xidmət sahəsi hesab olunan aqroturizm üçün

ən əlverişli bölgələrdən biri kimi qiymətləndirilir. Əlbəttə ki, Kəlbəcər rayonunun bərpası, eləcə də, aqrar sektorda müasir texnika və texnologiyaların tətbiqi nəzərdə tutulur ki, bu da Kəlbəcərdə kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə, Kəlbəcərdə yeni dönəmin – dirçəliş dönəminin əsasının qoyulmasına istiqamətləndirilib. Həmçinin bölgədə kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsi üçün torpaqların aqrokimyəvi qiymətləndirilməsi, su resurslarından səmərəli isifadə, innovativ inkişafın təmin edilməsi üçün ixtisaslı mütəxəssislərin cəlb olunması da aqrar sahədə inkişaf perspektivlərinin qiymətləndirilməsinə yönəldilmiş tədbirlər sırasındadır. Bunlarla yanaşı, dövlətimizin qarşıda duran əsas strateji vəzifəsi işğaldan azad olunmuş torpaqlarda kənd təsərrüfatını bərpa edərək ümumi kənd təsərrüfatı sisteminə inteqrasiyanı təmin etməkdir.

İşğaldan öncəki dövrə nəzər yetirsək Kəlbəcər rayonunda aqrar sektorda bitkiçilik sahəsində tütünçülüyün xüsusi çəkiyə malik olduğunu görə bilərik. Vaxtilə əhalinin böyük bir qismi tütünçülükdə çalışıb. Həmin dövrün məlumatlarına əsasən 1980-ci ildə 456 hektar sahədən 1285, 1985-ci ildə 801 hektar sahədən 1597 ton məhsul yığılıb. Sözsüz ki, artıq işğaldan azad edilmiş Kəlbəcər rayonunda müasir texnika və texnologiyaların tətbiqi, həmçinin yeni dönəmdə innovativ tədbirlərin həyata keçirilməsi ilə bu sahə üzrə məhsuldarlığı artırmaq mümkün olacaq, görülən tədbirlər planı imkan verəcək ki, 2025-ci ildə tütün istehsalı və məhsuldarlığı artsın.

Kəlbəcərdə bir çox sahələr kimi bitkiçilik sahəsində də inkişaf potensialı böyükdür. Qarabağ bölgəsində keçirilən çoxsaylı ekspedisiyalara, aparılan təhlil və tədqiqatların nəticələrinə görə bu torpaqlar biomüxtəlifliyin genetik ehtiyatlarının zənginliyinə görə ümumən Qafqaz regionunda xüsusi seçilir. Ümumiyyətlə, işğaldan azad edilmiş torpaqların inkişafı üzrə qəbul edilən tədbirlər planına uyğun olaraq, təmərküzləşmiş iqtisadi inkişaf çərçivəsində tətbiq olunması planlaşdırılan yeni texnika və texnologiyaların tətbiqi rayonda tərəvəzçilik və bostançılığın inkişafına yeni perspektivlər açacaq. Kəlbəcər rayonunun iqlim, torpaq və su ehtiyatları nəzərə alınaraq sözügedən tədbirlər planı çərçivəsində 500 hektarlıq intensiv nar,alma və xurma bağları salınmasının pilot layihələri də hazırlanıb. Verilən proqnozlara əsasən, 1000 hektara qədər sahədə taxıl əkiləcəyi də planlaşdırılır. Kəlbəcər rayonunda aqrar istehsal potensialı, bu region üçün yeni trend hesab edilən meyvəçilik sektoru üzrə emal müəssisələrinin açılması nəzərə alınmaqla, görüləcək tədbirlər planı daxil olmaqla, təbii şərait imkanlarına əsasən qeyd etmək olar ki, ötən dövrdəkilərə nisbətən təmərküzləşmiş inkişafın iqtisadiyyata töhvəsi daha çox olacaq.